

# ŞƏRƏFLİ HƏYAT YOLU

*1946-cı il dekabrın son günlərinin birində qədim Gəncə şəhərində İsmayıl kişinin ailəsində bir körpə dünyaya gəldi. Soyuq qış günündə həyata göz açan körpə ailəyə isti nəfəs, sevinc və fərəh gətirdi. Qohumlar, qonşular bir yerə yığışdı. Qızcığaza Ella adını qoydular.Balaca qız böyüdü. Məktəb yaşına çatdı. 1 sentyabr 1952-ci il tarixi onun yaddaşına həkk olunan günlərdən birinə çevrildi. Həmin gün Ella Gəncədəki M.Qorki adına orta məktəbin birinci sinfinə qəbul edildi. 5-ci sinfə qədər orada oxudu. Sonra ailə Bakı şəhərinə köçdü. Ella təhsilini 44 saylı məktəbdə davam etdirdi və 1963-cü ildə orta təhsilini müvəffəqiyyətlə başa vurdu.*

Atalar yaxşı deyib: «Niyyətin hara, mənzilin ora». Gənc qız arzusunun arxasınca getdi. Orta məktəb illərində əldə etdiyi biliyi köməyinə çatdı və 1963-cü ildə Bakı Mədəni-maarif texnikumunun klub işçisi, bədii özfəaliyyət teatr kollektivlərinin rəhbəri fakültəsinin tələbəsi oldu.

Qaynar tələbəlik dövrü bir sıra məqamları ilə yadda qaldı. Həmin illərdə Azərbaycan televiziyasında fəalliyyət göstərən «Pioner şeypuru», «Tonqal» proqramlarında olduqca fəal iştirak etdi, sənətin sirlərini T.Tahirov, N.Ağasadıqov, M.Kazımov və F.Bayramov kimi rejissorlardan öyrəndi. 1965-ci ildə «Xalq» teatrlarının respublika baxışı festivalındakı uğurlarına görə diplomla təltif olundu.

Ella xanım 1966-cı ildə texnikumu bitirdi. Təyinatını doğma yurduna – Gəncəyə aldı. Gəncə mədəniyyət idarəsində işə başlayan gənc qız tezliklə C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrına aktrisa təyin olunur. Əmək fəaliyyətinin ilk illərindən sənət imtahanlarından uğurla çıxır. Ona tapşırılan Nazlı (C.Məmmədquluzadə «Ölülər»), Gülbahar (S.Vurğun «Komsomol poeması»), Ayqız (İ.Əfəndiyev «Mənim günahım») və müxtəlif səpkili digər obrazların öhdəsindən bacarıqla gəlir, rejissorların etimadını doğruldur.

1968-ci ildə gənclik şəhəri Mingəçevirdə Dövlət Dram Teatrı açılır. Ella Yaqubova Mədəniyyət Nazirliyinin köçürməsi ilə bu teatra aktrisa təyin olunur və hal-hazıra kimi burada fəaliyyətini davam etdirir. 40 ilə yaxın müddətdə o, doğma kollektivin sevimlisinə çevrilmiş, tapşırılan obrazları ürək yanğısı ilə tamaşaçılara təqdim etmişdir. Onun oynadığı Almaz (C.Cabbarlı «Almaz»), Sona (M.F. Axundov «Hacı Qara»), Bənövşə (M.İbrahimov «Kəndçi qızı»), Qumru (Anar «Şəhərin yay günləri»), İsmət (H.Cavid «Ana») və onlarla digər obrazlar yüksək sənətkarlıq səviyyəsinə görə tamaşaçı alqışı ilə qarşılanmışdır.

On yeddi ildir ki, Ella xanım xalqımızın ağrı-acılı günlərini əks etdirən Qanlı 20 Yanvar, Xocalı harayı kompozisiya əsərlərində qadın, ana obrazlarının fəal ifaçısı kimi çıxış edir. O, 31 dekabr – Dünya azərbaycanlılarının həmrəyliyi günü, Yeni il və Novruz bayramlarının tamaşalarında müxtəlif illərdə quruluşçu rejissor kimi fəaliyyət göstərmişdir.

Şərəfli əmək insana həmişə hörmət gətirir, nüfuz qazandırır. E.Yaqubova Olqa (M.Zazudni «Yol kənarı»), Gülgəz (İ.Əfəndiyev «Mahnı dağlarda qaldı») və digər rolların ifasına görə müxtəlif vaxtlarda pul mükafatlarına layiq görülüb. O, Bakı, Naxçıvan, digər şəhər və rayonlarda dəfələrlə qastrol tama-

şaları ilə çıxış etmiş, diplomlar, fəxri fərmanlar almışdır.

Ella xanım aparıcı səhnə ustasıdır. O, Azərbaycan Teatr Xadimləri İttifaqının və bədii şüranın üzvüdür. 1988-ci ildə «Əmək veteranı» adına layiq görülüb. Şəxsi təşəbbüsü ilə teatrın nəzdində gənc aktyorlar şurasına rəhbərlik edir. O, studiyada gənclərin səhnə fəaliyyətinə köməklik göstərir, eyni zamanda şəhərin mədəni-kütləvi tədbirlərində qiraət ustası kimi iştirak edir.

Ötən ilin sonunda Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən E.Yaqubova anadan olmasının 60, yaradıcılıq fəaliyyətinin 40 illiyi münasibətilə fəxri fərmanla təltif olunub. Eyni zamanda Mədəniyyət və Turizm Nazirliyi yubilyarı pulla mükafatlandırılmışdır. Qarşıda Ella xanımı yeni-yeni nailiyyətlər, qələbələr gözləyir. Yubileyi münasibətilə biz də ona həyatın ən şirin neməti olan cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**B.Aslanov**